Fevralın 16-da Azərbaycan Rəssamlıq Akademiyasının rektoru vəzifəsinə təyin edilmiş Natiq Əliyev müəssisə kollektivinə təqdim olunub.

Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev və təhsil müəssisəsinin pedaqoji kollektivi iştirak ediblər.

Elm və təhsil naziri Natiq Əliyevin akademiyaya rektor təyin olunması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamını diqqətə çatdırıb və yeni rektora fəaliyyətində uğurlar arzulayıb.

Rektor Natiq Əliyev ona göstərilən etimada görə minnətdarlığını bildirib və üzərinə düşən vəzifəni layiqincə yerinə yetirəcəyini söyləyib.